# AZƏRBAYCANÇILIQ MOLLANƏSRƏDDİNÇİLƏRİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR SİSTEMİNDƏ

A.MƏMMƏDLİ
*Bakı Dövlət Universiteti*

Hər bir millətin formalaşması bu millətin özünəməxsus mənəvi dəyərlərinin formalaşma prosesi ilə eyni vaxta düşür. Hansı millətdə bu formalaşma prosesi erkən vaxta düşübsə, həmin millətin formalaşma prosesi də digərlərindən irəlidə olub. Azərbaycan xalqının bütövlükdə milli-mənəvi dəyərlər sistemi lap erkən çağlardan dünya və xüsusilə Şərq dəyərlərinə söykənərək böyük zənginləşmə prosesinə qədəm qoymuşdur. Bu dəyərlər xalq nağıllarında, müdrik bayatılarda, qəhrəmanlıq və məhəbbət dastanlarında və digər folklor nümunələrində özünün geniş təcəssümünü tapmışdır. Tədqiqatların birində çox doğru qeyd olunur ki, «bu ideologiyanın tarixi zəmini daha dərindədir, ideya qaynaqları isə təqribən min, min beş yüz il qədimlərə gedib çıxır» (1, s. 10). Həmin tədqiqatlarda belə bir fikir diqqəti cəlb edir ki, «xalqımız dünyaya Zərdüştü və «Avesta» kitabını, «Kitabi-Dədə Qorqud»u və qorqudçuluq məfkurəsini, «Koroğlu»nu və Çənlibel sosiologiyasını bəxş etmişdir ki, bunlar da bir tərəfdən ümumazərbaycançılıq məfkurəsinin, məxsusi birgə dəyərlərin, ümumi düşüncə və ictimai davranış tərzinin formalaşmasına və adət-ənənə sisteminin bərqərar olmasına təkan vermiş, digər tərəfdən isə Şərqin oxşar mənəvi dünyasının əsaslarının qurulmasında həyati rol oynamışdır» (1, s. 10).

Bu fikir son dərəcə obyektiv elmi qənaət kimi qiymətlidir və bizdə erkən formalaşan doğma millət haqqında geniş təsəvvür yaradır. Həqiqətən Vətən sevgisi, öz qövmündən olan insana doğma münasibət, insan və insanlığın bir etnosda təcəssümü kimi fəlsəfi yük daşıyan «Kitabi – Dədə Qorqud» boylarını xatırlamaq kifayətdir ki, azərbaycançılığın milli zəmində haçandan başladığı kimi möhtəşəm bir tarix təsəvvür edilsin. «Koroğlu» dastanındakı Çənlibel, Koroğlu və onun ətrafında bir yumruq kimi birləşmiş xalq kütlələləri milli Azərbaycan ideyasının azad Vətən, tarixi şəxsiyyət və xalq demokratiyasından ibarət iki mühüm tərkib hissəsinin simvolik arxitipi kimi dərk oluna bilər» (1, s. 12).

Azərbaycan xalqının ədəbi-bədii sənət nümunələrinin, istisnasız olaraq, bütün nümunələrində bu keyfiyyət öndə dayanır və bütün ədəbi qüvvələrin mütləq şəkildə xalq yaradıcılığı örnəklərindən qaynaqlandığını nəzərə alsaq, Xaqaninin və Nizaminin də, Nəsiminin və Füzulinin də, Mirzə Fətəli Axundovun və mollanəsrəddinçilərin də azərbaycançılığa xüsusi diqqətinin haradan gəldiyini hiss etmək çətin deyil. Bütün bunlar belədir. Lakin sənətdə və sənətkarda azərbaycançılığın ifadəsi üçün müddət bir az kortəbii, bir az spontan, bir az pərakəndə və bir az da şəxsi süzgəcindən keçən fakt kimi görünür. Bu məsələ bir milli pro-

blem, millətin tam formalaşması, özünüdərki, millətlər içərisində öz yerini dəqiqləşdirməsi və nəhayət bütün bunların ardıcıl şəkildə həyata keçirilməsi üçün ciddi ideoloji faktın yaranması XIX əsrin sonu və ələlxüsus XX əsrin əvvəllərinə düşür. Çünki «ideologiya baxışların və ideyaların elə bir sistemidir ki, onlarda insanların gerçəkliyə və bir-birinə münasibəti, sosial problemlər və münaqişələr dərk edilir və qiymətləndirilir, habelə mövcud ictimai münasibətlərin möhkəmləndirilməsinə və ya dəyişdirilməsinə (inkişafına) yönəldilmiş, sosial gerçəkliyin məqsədləri və yaxud proqramları əhatə olunur» (2).

XIX əsrin sonu Azərbaycan ziyalı qüvvələri azərbaycançılıq kimi bir problemin «sosial məqsədlərini» proqram səviyyəsinə qaldıra bildilər. Əhmədbəy Ağaoğlunun «Kaspi» qəzeti səhifələrindəki publisistikası XX əsrin lap əvvəlləri Azərbaycan vətənpərvərlərinin oyanışına xüsusi təkan verdi və bu əsrin əvvəllərində «Molla Nəsrəddin» ətrafında cəmləşən maarifçilərin yaradıcılıq kredosunu məhz yeni bir ideologiya–azərbaycançılıq kimi möhtəşəm bir məqsədin strategiyası təşkil etdi.

Əlbəttə, «Molla Nəsrəddin» jurnalının banisi və bütövlükdə mollanəsrəddinçilərin ideya rəhbəri Cəlil Məmmədquluzadənin yaradıcılığı, habelə Əbdürrəhimbəy Haqverdiyevin, Mirzə Ələkbər Sabirin, Əli Nəzminin, Məmməd Səid Ordubadinin, Əliqulu Qəmküsarın, Mirzə Əli Möcüzün, Üzeyir Hacıbəylinin və digər mollanəsrəddinçilərin yaradıcılıq amalında belə bir ideya vardı ki, Azərbaycan xalqının o zamankı çağında özünə layiqli yer tutması üçün milli-mənəvi dəyərlərin zənginləşdirilməsi, milli özünüdərkin təmin olunması, milli şüurun formalaşması kimi amillər daha çox bədii sözdən və eyni zamanda publisistikadan keçir. «Molla Nəsrəddin»dən və mollanəsrəddinçi qüvvələrdən qidalanan bütöv bir zaman kəsiyi azərbaycançılığın ifadəsi baxımından çox böyük maraq doğurur. Böyük yazıçı və böyük alim Mir Cəlal Paşayev Azərbaycan ədəbi məktəblərindən və xüsusilə «Molla Nəsrəddin»dən danışarkən belə bir faktı xüsusi qeyd edir: «Molla Nəsrəddin» elə bir həqiqət və intibah kitabıdır ki, onu açan hər bir şüurlu oxucu, müəlliflərinin böyüklüyünə və cəsarətinə valeh olacaqdır. Azərbaycan xalqının oyanmasında,... «ölülər» aləmindən qurtulmasında, tərəqqi yoluna düşməsində, maarif və mədəniyyətin təbliğində «Molla Nəsrəddin»dən böyük iş görən ikinci bir qəzet və məcmuə göstərmək çətindir» (3, s. 67.). Jurnalın sonradan «mollanəsrəddinçilər» epiteti qazanan əməkdaşları, müəllifləri haqqında eyni fikri demək mümkündür.

Bəziləri belə güman edir ki, mollanəsrəddinçilik yalnız «Molla Nəsrəddin» jurnalı ilə, bilavasitə onun redaksiyasında çalışmaqla əlaqədardır. Bu, əlbəttə, yanlış fikirdir. Çünki jurnalın ətrafında toplanan ədiblər bir tərəfdən onun redaksiyası ilə sıx əlaqə saxlayıb, publisist işi görürdülərsə, digər tərəfdən jurnalistikaya birbaşa dəxli olmayan bədii ədəbiyyatla–poeziya, nəsr, dramaturgiya ilə ciddi məşğul olurdular. Lakin bu yaradıcılıq növünün hamısında onlar azərbaycançılıq ideyalarını önə çəkir, öz xalqını müstəqil, kamil görmək arzularını bədii sözlə ifadə edirdilər. Məsələn, mollanəsrəddinçi Əbdürrəhimbəy Haqverdiyev xalq ilə dərdləşmək, azərbaycançılıq ideyalarını yaymaq üçün dramaturgiyanı, Mirzə Ələkbər Sabir satirik poeziyanı ən yaxşı vasitə kimi götürmüşlər. Dünya klassiklərinin dramaturgiya ilə öz ideyalarını yayması təcrübəsini öyrəndikdən sonra Əbdürrəhimbəy Haqverdiyev azərbaycançılığın ünlü nümunələri olan «Dağılan tifaq», «Bəxtsiz cavan», «Pəri

cadu» kimi əsərlərini yazmışdır. «Dağılan tifaq»da ədib oxumuş, millətini işıqlı, kamil görmək istəyən, bunun uğrunda hər cür əzaba qatlaşan Fərhad obrazını bütün pisliklərə və şərə qarşı qoyaraq mükəmməl milli persona yaratmışdır. Sonralar qələmə aldığı «Millət dostları», «Ac hariflər», «Xəyalat», «Ədalət qapıları», «Qadınlar bayramı» və s. kimi pyeslərində də həmin amal, həmin ideya üstünlük təşkil edir.

Bununla belə, Əbdürrəhimbəy Haqverdiyev digər mollanəsrəddinçilər kimi, jurnala gəlişi ilə həm mövzü dünyası baxımından, həm də operativlik nöqteyi-nəzərindən daha çevik ədəbi janrlara meyl edir. Məhz «Molla Nəsrəddin»in nəşrindən sonra Əbdürrəhimbəy Haqverdiyev yaradıcılığının ikinci dövrü başlanır. O, böyük realistlər qrupu ilə möhkəm cəbhə təşkil edərək, xalq səadəti uğrunda, azadlıq uğrunda, ədəbiyyatda realizm, xəlqilik, sadəlik, müasirlik uğrunda çalışır, xüsusən xırda hekayələr ustası kimi böyük hörmət qazanır» (3, s. 118). O, dramaturgiyada olduğu kimi, bəlkə bundan da artıq, öz nəsrində azərbaycançılığı görür və onun bədii həllini verir.

Mirzə Ələkbər Sabir ən sədaqətli mollanəsrəddinçi kimi ictimai şüurun meydana atdığı, insanı düşündürən hər bir məsələni, hər bir hadisəni ədəbiyyatın, bədii təfəkkürün obyekti etdi. Mirzə Ələkbər Sabir özünün «Millət necə tarac olur-olsun», «Təraneyi-şairanə», «İstiqbal üçün», «Oxutmuram, əl çəkin» və s. onlarca şeirində millətin, xalqın meydanda olan problemlərini önə çəkmiş və onların həllinin vacib olduğunu xalqa başa salmışdır.

XX əsrin əvvəllərində yazıb-yaratmış Məmməd Səid Ordubadi, Süleyman Sani Axundov, Abdulla Şaiq Talıbzadə, İsmayılbəy Musabəyov, Mirzə Məhəmməd Axundov, Rəşidbəy Əfəndiyev kimilərinin də yaradıcılığında azərbaycançılıq milli-mənəvi dəyərlər sisteminin aparıcı xəttinə çevrilmişdir.

Qeyd edək ki, mollanəsrəddinçilərin milli-mənəvi dəyərlər sistemində azərbaycançılıq heç də ümumtürk qürurunu, ümumtürk ideyalarını inkar etməmişdir. Lakin digərlərindən fərqli olaraq, mollanəsrəddinçilər azərbaycançılığı türkçülüyün tərkib hissəsi kimi qəbul etmiş, yeri gəldikcə, regional, milli xüsusiyyətləri irəli çəkmişlər.

Beləliklə, XX əsrin əvvəllərində fəaliyyət göstərmiş yazıçı və şairlərin, ediblərin öz yaradıcılıqlarında qoyduqları milli ideyalar mollanəsrəddinçilərin ədəbi-bədii, publisistik irsində azərbaycançılıq kimi ciddi bir ideyanın mükəmməl ifadəsində örnək oldu.

### QEYDLƏR:


1. Vəliyeva S. Azərbaycançılıq milli ideologiya və ədəbi estetik təlim kimi. Bakı: Azərbaycan nəşriyyatı, 2002, 140 s.
2. Mehdiyev R. Azərbaycanda siyasət: dünən, bu gün və sabah. «Azərbaycan» qəzeti, 9-10 yanvar. 2002
3. Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917). Bakı: Ziya–Nurlan, 2004, 391 s.

## АЗЕРБАЙДЖАНСТВО МОЛЛАНАСРЕДДИНОВЦЕВ В СИСТЕМЕ НАЦИОНАЛЬНО-ДУХОВНЫХ ЦЕННОСТЕЙ

**А.МАММЕДЛИ**

**РЕЗЮМЕ**

В статье ведется речь о научных анализах истории журналистики Азербайджана. В ней затрагиваются попытки воплощения идей азербайджанства интеллигенцией Азербайджана. В статье отображаются способы ведения пропаганды идеи азербайджанства в творчестве просветителей-демократов начала XX века, источники происхождения этой идеи в творчестве отдельных писателей, которые основываются на научных анализах. Высказывается такая мысль, что идея азербайджанства возникла из желания видеть достойной свою нацию. Творчество просветителей-демократов побуждает каждого азербайджанца задуматься и сделать выводы о своем прошлом и будущем своего народа.

## AZERBAIJANIZM AT THE SYSTEM OF NATIONAL AND MORAL VALUE OF THE MOLLANASRADDINS

**A.MAMMADLI**

**SUMMARY**

Azerbaijani educational journalistic history is being glanced with scientific analyses in the article. It tells about the efforts of realizing Azerbaijani ideas by Azerbaijani intellectuals. The methods of propagandizing Azerbaijani ideas of educated-democrats, the creation of this idea in writes' works are being scientificly analized. Such an idea is founded that, Azerbaijani idea is the origin of the wish to see its nation perfect. The works of educated-democrats make every Azerbaijani think about his past and future, his people and nation and make a result of it.